## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun və UNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının maliyyə və təşkilati dəstəyi ilə elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü ildə keçirilmiş beynəlxalq xarakterli 2-ci "ŞUŞA QRANTI" müsabiqəsinin (EİF/MQM-2-Shusha-2013-3(9)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

### YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Şuşa Azərbaycan mətbuatında (1875-1920-ci illər)**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Rəhimov Mütəllim Qara oğlu**
Qrantın məbləği: **10 000 manat**
Layihənin nömrəsi: **EİF/MQM-2-Şuşa-2013-3(9)-10/05/5-M-08**
Müqavilənin imzalanma tarixi: **11 aprel 2014-cü il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 may 2014-cü il-01 may 2015-ci il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır
Diqqət! Uyğun məlumat olmadığı təqdirdə müvafiq bölmə boş buraxılır

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| 1 | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
| | 1875-1920-ci illərdə əski Azərbaycan əlifbası ilə nəşr olunan və ölkəmizin müxtəlif arxivlərində saxlanılan qəzetlər araşdırmaya cəlb olunmuşdur. Bu dövri nəşrlərdə Şuşa haqqında bütün yazılar tədqiq olunaraq, onlar müasir əlifba ilə işlənmişdir. İşlənilmiş materiallar komputerə köçürülmüşdür. Layihənin həyata keçirilməsində elmi yanaşma və araşdırma, tədqiqat üsullarından istifadə edilmiş, hissi, idrakı, empirik və nəzəri, abstrakt və konkret, həqiqi dərketmə kateqoriyalarından bəhrələnilmişdir. |
| 2 | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli) |
| | Nəzərdə tutulan işlər 100 faiz yerinə yetirilib. |

| 3 | Hesabat dövründə alınmış **elmi nəticələr** (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir) |
|---|---|

1. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, Şuşa şəhəri tədqiq olunduğu dövr ərzində (1875-1920) Azərbaycanın kifayət qədər inkişaf etmiş şəhərlərindən biri olmuşdur. Əhalisinin sayı da sovet dövründəkinə nisbətən çoxluq təşkil etmişdir.
2. 1875-1920-ci il mətbuatında Şuşa şəhəri xüsusi olaraq diqqət mərkəzində olmuş, burada baş verən bütün hadisələr(ictimai, siyasi, iqtisadi, sosial, təhsil və s.) qəzetlərin səhifələrində işıqlandırılmışdır.
3. Şuşa şəhərində ermənilərlə müsəlmanlar (azərbaycanlılar) arasında gedən döyüşlərdə ermənilər kifayət qədər müsəlmanlara zülm etmiş, onlara qarşı mənəvi və fiziki baxımdan alçaldıcı, təhqiredici hərəkətlər törətmişlər.
4. Şuşada əldə edilən atəşkəs haqda razılaşmaya ermənilərin əməl etməyəcəyi və onların sözlərinin üstündə duran millət olmadığı fikri hakim idi.
5. Ermənilərin birliyinə rəğmən müsəlmanların daha çox maddi maraqlarını ifadə etməsi səbəbindən birləşə bilməmələri Şuşa ziyalıları tərəfindən ürək ağrısı ilə ifadə olunurdu.
6. Şuşa şəhərində məktəbdə oxuyan müsəlman uşaqları Azərbaycan dilində qəzetlərin çıxmasını böyük rəğbətlə qarşılayırdılar və bunu təhsillərinə dəstək hesab edirdilər.
7. Müsəlman vəzifə sahiblərinin öz kəndlilərinə zülm etdiyi, erməni vəzifə sahiblərinin isə öz millətinin imkansızlarına kömək etdiyi məlum olur.
8. Vəzifəli ermənilərin, hətta keşişlərin dövlət əmlakını talan etdiyi üzə çıxır.
9. Şuşanın mədəniyyət və siyasi mərkəz olduğu üzə çıxır.
10. Şuşa şəhəri 1875-1920-ci il mətbuatında "Qala" adı ilə də adlandırılırdı.
11. Şuşa şəhərinin rəhbərlərinin və imkanlı şəxslərinin mətbuatda işıqlandırılan informasiyaları nəzərə aldığı və müvafiq nəticələr çıxardığı məlum olur. Baxmyaraq ki, mətbuatın oxucusu kifayət qədər geniş olmayıb.
12. Mətbuat Şuşada cəhalətin hökm sürdüyünü ürək ağrısı ilə bildirir: 1879-cu ildə məktəbdə 345 nəfər şagirddən 3 nəfərinin müsəlman, qalanlarının erməni olduğu halda 325 nəfər məhbusdan yalnız 2-nin erməni, yerdə qalanlarının isə müsəlman olduğu bildirilir.
13. XIX əsrin sonları XX əsrin əvvəlləri Şuşanın ədəbi-mədəni mühiti və ictimai-siyasi həyatı haqqında müəyyən təsəvvür yaratmağa, elmi təhlillər aparmağa imkan verir.
14. Tədqiqatın əhatə etdiyi dövrdə Şuşada yaşayan əhalinin etnik tərkibini öyrənmək baxımından ilkin qaynaq kimi əhəmiyyətlidir.
15. Rus çarizminin Qafqazda yeritdiyi ayrı-seçkilik siyasətini, erməniləri açıq-aşkar dəstəkləməsini öyrənmək baxımından tutarlı faktlar verir.
16. Bütövlükdə Şuşanın XIX əsrin sonu, XX əsrin əvvəllərini əhatə edən tarixini öyrənmək baxımından ilkin mötəbər mənbə kimi dəyərlidir.
17. Azərbaycanlıların tolerantlığını, multikultural düşüncə tərzi haqqında çoxsaylı faktlar aşkara çıxmışdır.
18. Erməni qəzetlərinin Şuşa haqqında məqalə, xəbər və yazılarını "Həyat" qəzeti heç bir düzəliş etmədən çap edərək, öz oxucularına çatdırıb. Baxmayaraq ki, erməni mətbuatı azərbaycanlıların əleyhinə, uydurma informasiyalar çap edirdilər. Bu da Azərbaycan mətbuatının özgə fikirə hörmətlə yanaşdığını nümayiş etdirir.
19. Erməni mətbuatının Azərbaycan olmayaraq  dilində çıxan qəzetlərin rəhbərlərinə və onların kollektivlərinə qarşı böhtan kompaniyasına geniş yer verdiyi məlum olur. Beləliklə, Şuşada erməni silahlılarının Şuşada başladıqları qırğına onların mətbuatları da şər və böhtanla dəstək veriblər.
20. Şuşa qırğınları vaxtı Dağıstanda yaşayan müsəlmanların həmrəylik nümayiş etdirərək, kömək təklif etmələri faktı üzə çıxır ki, bu da milliyyətindən asılı olmayaraq müsəlman həmrəyliyinin mövcudluğunu göstərir.
21. Şuşa əhalisinin yaşayış tərzi haqqında geniş məlumatlar əldə etmək mümkündür.

22. Şuşa əhalisinin sosial vəziyyətini müəyyənləşdirmək üçün çoxsaylı tarixi faktlar üzə çıxarılmışdır.
23. Şuşa əhalisinin iqtisadi vəziyyətini təyin etmək və öyrənmək üçün maraqlı, indiyədək ortaya çıxarılmayan faktoloji materiallar meydana çıxarılmışdır.
24. Şuşa şəhərində müsəlmanların yaşadığl müsəlman məhəllələri, ermənilərin yaşadığı erməni məhəllələri olmuşdur.
25. Şuşa şəhərində baş verən hadisələrin üzərində ermənilərlə azərbaycanlılar arasında soyuq müharibənin ilkin işartılarını müəyyən etmək mümkün olmuşdur.
26. Şuşa şəhərində müsəlmanların müqəddəs ibadətgahı məscidlərlə yanaşı, erməni kilsələrinin də mövcudluğu üzə çıxır. Bu da Şuşada tolerantlığın nümunəsidir və ermənilərə qarşı müsəlmanlar tərəfində hər hansı ayrı-seçkiliyin aparılmadığını sübut edir.
27. Ermənilərin Şuşada törətdikləri qırğınların arxasında xarici ölkələrdə yaşayan ermənilərin dayandığı məlum olur.
28. Ermənilər sülh haqqında müqavilə (razılaşma) təklifinə müsəlmanlar hər zaman müsbət cavab vermiş, lakin atəşkəs yenidən ermənilər tərəfindən pozulmuşdur.
29. Erməni mətbuatının Şuşanın Qubernatoru barədə yazılarından məlum olur ki, onlar Qubernatoru ələ almaq üçün ona yaltaqlanmaq və yalan informasiyalar verməkdən çəkinməyiblər.
30. Şuşa şəhərinin İdarəsinin Məclisində ermənilər müsəlmanları ödürənləri təslim etməkdən boyun qaçırır, hətta iddia edirlər ki, müsəlmanlar bir-birini öldürüblər.
31. Ermənilər öz cinayət əməllərini ört-basdır etmək üçün təxribatlara yol verməkdən heç vaxt çəkinməyiblər. Onlar sərkərdan həyat keçirən ağıldankəm bir erməni qadınını öldürərək cinayəti müsəlmanların üzərinə atmağa çalışıb və ədavətin qızışmasına, sülh haqqında razılaşmanın pozulmasına nail olublar.
32. "Azərbaycan" qəzetinin ən fəal əməkdaşlarından biri Xəlil İbrahim olub. O, 1892-ci ildə Şuşada anadan olub, ibtidai təhsilini Şuşada, realnı məktəbi Bakıda bitirib. Bir çox qəzetlərdə müxbir və redaktor kimi çalışıb. 1919-cu ildə qəzetin 4 iyul 216-ci nömrəsindən 1 sentyabr 265-ci nömrəsinə qədər "Azərbaycan" qəzetinin redaktoru olmuşdur. X.İbrahim siyasi görüşlərinə görə 1938-ci ildə "xalq düşməni" kimi həbs edilərək güllələnib.
33. Fərhad Ağazadə 1880-ci il avqustun 19-da Şuşa şəhərində anadan olmuşdur. 1898-ci ildə Qori Müəllimlər Seminariyasına daxil olub, 1900-cü ildə oranı bitirib. "Azərbaycan" qəzetinin ən fəal yazarlarından olub. 1919-1920-ci illərdə çıxan "Azərbaycan" qəzetinin hər nömrəsində F.Ağazadənin məqaləsinə rast gəlmək olar, Şuşa ilə bağlı yazıların əksəriyyəti də onun qələminin məhsuludur.
34. Şimali Qafqazdan Şuşaya dəstək verilir və general Qoloşçapovun hərəkətlərinə etiraz bildirilir. Şimali Qafqazın tanınmış ziyalıları - Doktor Təhlət, vəkil Sanayev, sabiq Dövlət Duma üzvü Eldarxanov, general-leytenant Dudarov, general-mayor Quşov, polkovnik Sanayev, knyaz Xasay Utsimyev, Dağıstanın ruhani qazısı Yusif Zahidov, tələbə Birsanoqo Ujaxov, Əndris Almazov, Soslanbek Liyanov, Sardol Cambutov, Albast Hacı Tutayev, Qurbakov general-qubernatora bununla bağlı məktub göndərirlər.
35. 1905-ci ildə ermənilərin Şuşada törətdikləri müsəlman qırğınları ilə bağlı çoxsaylı düşünülmüş və əvvəlcədən planlaşdırılmış tamamilə yalan üzərində qurulan təbliğat kompaniyası qururdular. Onlar hətta mətbuatda general-qubernator Taqayşvilinin guya erməniləri müdafiə etdiyi, erməni-müsəlman qarşıdurmasının yaranmasında müsəlmanları günahlandırdığını ictimai fikrə yeritməyə çalışıblar.
36. Şuşada açılan hər bir məktəb şəhərin ziyalıları tərəfindən böyük rəğbətlə qarşılanır. Uşaqların təhsil almasını onlar sevinclə qeyd edirlər.
37. 1875-1920-ci illərdə Azərbaycan dilində çap olunmuş qəzetlərdə əsasən Şuşada ermənilərin törətdikləri müsəlman qırğınarı, Şuşa şəhərinin idarə olunmasının vəziyyəti,

şuşa əhalisinin sosial-iqtisadi, maddi-mənəvi durumu haqqında ətraflı informasiyalar almaq mümkündür.

38. XIX əsrin sonlarında Şuşada imkanlı şəxslərin qəzetlərə maddi köməklik göstərmədiyi, hətta qəzetə abunə yazılmaqdan imtina etdikləri, onu almadıqları məlum olur. İmkanlı şəxslər informasiya və təbliğat məsələlərinə qeyri-ciddi baxmadıqlarına görə bir çox hallarda hadisələrin inkişaf dinamikasını düzgün tuta bilmirdilər.

39. Şuşada bəylərin, imkanlı şəxslərin qızlara, qadınlara qarşı zorakılığı bir çox faktlarla məlum olur. Bəy övladları sadə vətəndaşların qızlarını onların razılığı olmadan qaçıraraq özlərinə ikinci, üçüncü həyat yoldaşı edirdilər.

40. Şuşada sadə vətəndaşların elmi yaradıcılığa, ixtiralara meyl göstərdiyi məlum olur. Yerli sakinlərdən biri düyü döyən maşın ixtira edir. bu maşın insanların ağır əl əməyini xeyli yüngülləşdirməyə xidmət edir. Yeni ixtira həm şuşa sakinləri, həm də ətraf kəndlərin sakinləri tərəfindən rəğbətlə qarşılanır.

41. Dükan sahiblərinin mallarının satışı zamanı həm tərəzidə, həm keyfiyyətdə alıcıları aldatdıqları məlum olur.

42. Ermənilər azərbaycanlılara qarşı qanlı qırğınları təşkil etmək üçün 1905-ci ildən Şuşada yaşayan ermənilər arasında pul toplamağa başlayıblar. Araşdırmalar göstərir ki, onları buna təşviq və sövq edən xarici ölkələrdə yaşayan ermənilər olub.

43. Ermənilərin öz məkrli siyasətlərini həyata keçirmək üçün hazırda dövlət siyasəti səviyyəsinə qaldırdıqları "yazıq", "məzlum", "əzilən" millət fikirlərinin XIX əsrin sonlarında da eynilə onların təbliğatlarında əsas nüvəni təşkil etdiyi görsənir. Həmin dövrdə ermənilər həm Rusiyanın mərkəzi şəhərlərini, həm də Avropanı dolaşaraq özlərini bu cür təqdim edir, onlardan mərhəmət göstərilməsini, ermənilərin müdafiə olunmasını xahiş edirdilər.

44. Rus generalı Qoloşçapov ermənilərin planlarını həyata keçirərərk əlində olan hərbi birləşmələrin gücündən istifadə edərək müsəlmanlara qarşı amansız vəhşiliklər törədib. O, 1906-ci ildə iyul ayının 15-də Şuşa şəhərinin müsəlmanlar yaşayan ərazilərinə yüzdən artıq top mərmisinin atılması haqqında əmr verib. Beləliklə, ermənilərin iyulun 12-dən başladıqları qırğınlara rus hərbi dəstələri, başda hərbi general olmaqla silahlı, o cümlədən artilleriaya dəstəyi vermişlər.

45. Ermənilərlə birlikdə müsəlmanlara qarşı döyüşən General Qoloşçapovun Gəncə quberniyasının Şuşa, Zəngəzur, Qazax və Cavanşir uyezdlərinin general qubernatoru vəzifəsindən azad edilərək onun yerinə general Baeveyrin təyin olunmasını Şuşada rəğbətlə qarşılayırlar. Baxmayaraq ki,bir müddət əvvəl Şuşa ziyalıları onun tutduğu vəzifədən çıxarılması ilə bağlı Tiflisdə məsələ qaldırsalar da bu problem həll edilməmişdi.

46. Şuşada baş verən hadisələri, xüsusilə erməni yalanı, məkri, müsəlmanları qırması ilə bağlı XIX əsrin sonlarında bu şəhərdə yaşayan yaradıcı insanlar tərəfindən şer formasında qələmə alınıb. Şairlər şuşalıların başına gələnləri bədii formada çox ustalıqla ifadə edə bilib, onun səbəblərini göstərməyə çalışıblar.

47. Qarabağın bir neçə iri şəhəri olmasına baxmayaraq XIX əsrin sonu, XX əsrin əvvəllərində Şuşa şəhərinin əhalisi, mədəniyyəti, ticarət həcmi kifayət qədər artıb. Bu da Şuşanı Qarabağın mərkəzinə çevirib. Ona görə də bir çox dövlət idarəetmə qurumları həmin dövrdə Şuşada yerləşiblər.

48. 1905-ci ildə Şuşanı erməni hücumundan müdafiə halına gətirmək üçün qızğın işlər görülməyə başlayanda şəhərdə vəba və yatalaq kimi sarı xəstəliklər gündə 30-40 adamın ölümünə bais olurdu. Bu da Şuşanın müdafiəsində çox ciddi problem yaradırdı. Üstəlik şəhərdə və ətraf kəndlərdə insanlara tibbi yardım göstərilməsi üçün lazımi miqdarda nə dərman, nə də həkim yox idi. Bu da vəziyyəti daha da çətinləşdirirdi.

49. Şuşa əhalisinin Azərbaycan Xalq Cümhuriyyətinin ilk parlamentinin yaradılmasını və

fəaliyyətə başlamasını alqışladıqları və təqdir etdikləri göndərdikləri çoxsaylı teleqramlardan bəlli olur.

50. General Tomson ermənilərin hərbi lideri Andronikə teleqram göndərərək müsəlman qırğınlarını dayandırmağı tələb etmişdir. Andronikin təcavüzdən əl çəkmədiyi təqdirdə şəxsən cavabdeh olacağını bildirmişdir.

51. Müsəlmanlara qarşı apardığı uzun müddətli qırğınların müqabilində ermənilərin də çoxsaylı itkiləri və ağır sosial-iqtisadi şəraitdə yaşamaları onların (xüsusilə Şuşada yaşayan ermənilərin) Andronikə qarşı nifrətlərinin yaranmasına gətirib çıxarmışdı. Lakin xalqın bu narazılığının qarşısı həm xaricdə yaşayan erməni başbilənləri həm də onların yerli nümayəndələri tərəfindən alınırdı. Müsəlman kəndlərinə qarşı törədilən soyğun və qarət və talançılıqla erməniləri aclıq və səfalətdən xilas etməyə, Andronikə qarşı etirazlara son qoymağa çalışırdılar.

52. Müstəqil dövlətçilik tariximizdə öz yeri olan "Azərbaycan" qəzeti 1918-ci ilin sentyabr ayının 15-dən fəaliyyətə başlamış və ölkənin daxilində, eləcə də xarici ölkələrdə baş verən olayları obyektiv, qərəzsiz şəkildə işıqlandırmışdır. M.Ə.Rəsulzadə, Mirzəbala Məmmədzadə, Xəlil İbrahim, Əhməd Cavad, Ömər Faiq Nemanzadə, Məhəmməd ağa Şahtaxtlı, Firidun bəy Köçərli, Cəfər cabbarlı, Abdulla Şaiq və Azərbaycanın digər nüfuzlu şəxsləri, o cümlədən yazıçı-publisistləri müxtəlif mövzularda yazdıqları məqalələrlə "Azərbaycan" qəzetində çıxış etmişlər.

53. "Azərbaycan" qəzetinin ən fəal əməkdaşları olan əslən Şuşalı Xəlil İbrahim və Fərhad Ağazadə ardıcıl olaraq qəzetin müxtəlif nömrələrində Şuşa iə bağlı məqalələrlə çıxış ediblər. Bununla da onlar həmin illərdə ölkənin ən həssas məntəqəsi olan Şuşada (eləcə də Qarabağda) baş verən hadisələrlə ölkə ictimaiyyətini tanış edir, sırası gəldikdə qəddar Andronikin bu regionda törətdiyi çoxlu qarətlərə, cinayətlərə qarşı öz kəskin münasibətlərini bildirirdilər.

54. "Azərbaycan" qəzetinin verdiyi informasiyalar olduqca maraqlıdır. Bu qəzet Azərbaycan Xalq Cümhuriyyətinin orqanı olduğu üçün parlamentin keçirdiyi bütün tədbirləri, orada qoyulan məsələləri qərəzsiz şəkildə, olduğu kimi xalqa çatdırmışdır. Bu qəzet özünün obyektivliyi ilə digər mətbuat orqanlarından seçilmişdir. Qəzetin üstün cəhətlərindən biri də xalqın ümumi vəziyyətini, sosial durumu, güzəranını, ölkədə baş verən epidemiyaları, aclıq və səfaləti, erməni vəhşiliklərini və sairəni obyektiv şəkildə işıqlandırmasından ibarət idi. Qəzet ümumilikdə 1918, 1919 və 1920-ci illərdə ölkədə baş verən siyasi hadisələri, xalqın ümumi vəziyyətini, yeni yaranmış Cümhuriyyətin işinə mane olan ünsürlərin qərəzli fəaliyyətini işıqlandırmaq baxımından da olduqca vacib bir missiyanı üzərinə götürmüşdür. Bütün bunları nəzərə alaraq, qəzetdə təkcə Şuşa ilə bağlı məqalə və informasiyaların deyil, həm də onun bütün materiallarının yeni əlifbaya çevrilərək müasir oxucuya çatdırılmasına ehtiyac olduğu görünür.

Əldə olunmuş elmi nəticələri mədəniyyət, jurnalistika, politologiya, tarix, konfliktologiya elmlərində istifadə və tətbiq etmək mümkündür.

Layihənin icrası nəticəsində əldə edilmiş elmi nəticələr həm nəzəri, həm praktik əhəmiyyət daşıyır. Ondan nəzəri elmi tədqiqatlarda, tədris prosesində istifadə etmək mümkündür. Xüsusilə tarix, politologiya, konfliktologiya elmləri əldə olunan elmi nəticələrə istinad edərək, ortaya keyfiyyətli və sanballı əsərlər çıxara bilər. Bütün bunlarla yanaşı praktik olaraq Azərbaycan-Ermənistan münasibətlərinin formalaşması prosesində strateji hədəflərin hesablanmasında əldə edilən elmi nəticələrdən bəhrələnmək mümkündür.

Layihə üzrə **elmi nəşrlər** (elmi jurnallarda məqalələr, monoqrafiyalar, icmallar, konfrans materiallarında məqalələr, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə,

| | |
|---|---|
| | uyğun məlumat - jurnalın adı, nömrəsi, cildi, səhifələri, nəşriyyat, indeksi, İmpact Factor, həmmüəlliflər və s. bunun kimi məlumatlar - ciddi şəkildə dəqiq olaraq göstərilməlidir) *(surətlərini kağız üzərində və CD şəklində əlavə etməli!)* |
| | Olmayıb. |
| 5 | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | Olmayıb. |
| 6 | Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir) |
| | Olmayıb. |
| 7 | Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa) |
| | Olmayıb. |
| 8 | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | Olmayıb. |
| 9 | Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s. çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq) |
| | Olmayıb. |
| 10 | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə məmulatları |
| | Olmayıb. |
| 11 | Yerli həmkarlarla əlaqələr |
| | AMEA-nın Əlyazmalar İnstitutunun əməkdaşları Ədalət Tahirzadə və Rauf Zamanov ilə əlaqələr qurularaq onların imkanlarından da bəhrənilmişdir. |
| 12 | Xarici həmkarlarla əlaqələr |
| | Olmayıb. |
| 13 | Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa) |
| | Olmayıb. |
| 14 | Sərgilərdə iştirak (əgər baş tutubsa) |
| | Olmayıb. |
| 15 | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi (əgər baş tutubsa) |
| | Olmayıb. |

| 16 | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. (məlumatı tam şəkildə göstərilməlidir) |
|---|---|
| | Olmayıb. |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Müşavir**
Babayeva Ədilə Əli qızı

____________________
*(imza)*
“26” 05 2015-ci il

**Baş məsləhətçi**
Daşdəmirova Xanım Faiq qızı

____________________
*(imza)*
“__” ________ 201_-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**
Rəhimov Mütəllim Qara oğlu

____________________
*(imza)*
“26” may 2015-ci il

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA

# ELMİN İNKİŞAFI FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun və UNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının maliyyə və təşkilati dəstəyi ilə elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü ildə keçirilmiş beynəlxalq xarakterli 2-ci "ŞUŞA QRANTI" müsabiqəsinin (EİF/MQM-2-Shusha-2013-3(9)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

## ALINMIŞ NƏTİCƏLƏRİN ƏMƏLİ (TƏCRÜBİ) HƏYATA KEÇİRİLMƏSİ VƏ LAYİHƏNİN NƏTİCƏLƏRİNDƏN GƏLƏCƏK TƏDQİQATLARDA İSTİFADƏ PERSPEKTİVLƏRİ HAQQINDA MƏLUMAT VƏRƏQİ

**(Qaydalar üzrə Əlavə 16)**

Layihənin adı: **Şuşa Azərbaycan mətbuatında (1875-1920-ci illər)**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Rəhimov Mütəllim Qara oğlu**
Qrantın məbləği: **10 000 manat**
Layihənin nömrəsi: **EİF/MQM-2-Şuşa-2013-3(9)-10/05/5-M-08**
Müqavilənin imzalanma tarixi: **11 aprel 2014-cü il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 may 2014-cü il-01 may 2015-ci il**

### 1. Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi

| | |
|---|---|
| **1** | Layihənin əsas əməli (təcrübi) nəticələri, bu nəticələrin məlum analoqlar ilə müqayisəli xarakteristikası |
| | Sırf mətbuat orqanlarına istinad olunaraq müəyyən zaman kəsiyində tariximizin, mədəniyyətimizin, keçmiş idarəetmə qaydalarının, ictimai münasibətlərin və s. öyrənilməsi Şuşa şəhərinin simasında həyata keçirilib. Bu vasitə ilə Şuşanın müəyyən bir zamana aid (1875-1920-ci illər) bütün nüansları obyektiv olaraq aydınlaşdırılıb, maraqlı eimi-tarixi nəticələr əldə olunub. <br><br> Əldə edilən nəticələr onu deməyə əsas verir ki, göstərilən dövrə aid artıq mülahizələr və |

| | |
|---|---|
| | ehtimallarla deyil, konkret faktlarla danışmaq mümkün olacaq. Belə ki, tariximizin bu dövrü çox mürəkkəb, soydaşlarımızın kütləvi şəkildə məhv edilməsi, erməni iddiaları və yalanları ilə doludur. Bütün bunlara aydınlıq gətirilməsi baxımından icra olunan layihənin nəticələri olduqca mühümdür.<br><br>Şuşanın tarixi ilə bağlı çoxsaylı araşdırmalar, tədqiqatlar aparılsa da onun tarixinə mətbuat yazıları prizmasından yanaşmalar olmayıb və Şuşa bu aspektdən öyrənilməyib. İlk dəfə olaraq Azərbaycanda bu vasitə ilə işğal altında olan, lakin çox böyük siyasi, tarixi əhəmiyyətə malik Şuşa şəhərinin bütün həyatı araşdırmaya cəlb olunub. Burada həm sadə vətəndaşların, həm savadlı insanların həm də səlahiyyət sahiblərinin bütün cizgilərini görmək, müvafiq nəticələr çıxarmaq mümkündür. Bu statistik və ehtimallara söykənən tarix deyil, təkzib olunmaz faktlarla bərkidilmiş, dərin kökləri olan canlı faktoloji materiallardır.<br><br>Əldə olunmuş nəticələr ictimai-siyasi proseslərin qiymətləndirilməsində, analoji tarixi hadisələrin proqnozlaşdırılmasında mühüm rol oynayacaq.<br><br>Əldə olunan nəticələr göstərir ki, Şuşanın tarixinin öyrənilməsi üçün mətbuatda dərc olunan məqalə və yazıların araşdırılmasının böyük əhəmiyyəti var. Bu həm də ona görə vacibdir ki, müxtəlif ictimai, siyasi, sosial, mədəni, təhsil və s. sahələrə dair obyektiv məlumatların mətbuatdan toplanması həmin dövrün həqiqətlərini üzə çıxarır. |
| 2 | Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi haqqında məlumat (istehsalatda tətbiq (tətbiqin aktını əlavə etməli); tədris və təhsildə (nəşr olunmuş elmi əsərlər və s. – təhsil sisteminə tətbiqin aktını əlavə etməli); bağlanmış xarici müqavilələr və ya beynəlxalq layihələr (kimlə bağlanıb, müqavilənin və ya layihənin nömrəsi, adı, tarixi və dəyəri); dövlət proqramlarında (dövlət orqanının adı, qərarın nömrəsi və tarixi); ixtira üçün alınmış patentlərdə (patentin nömrəsi, verilmə tarixi, ixtiranın adı); və digərlərində) |
| | olmayıb |

2. **Layihənin nəticələrindən gələcək tədqiqatlarda istifadə perspektivləri**

| | |
|---|---|
| 1 | Nəticələrin istifadəsi perspektivləri (fundamental, tətbiqi və axtarış-innovasiya yönlü elmi-tədqiqat layihə və proqramlarında; dövlət proqramlarında; dövlət qurumlarının sahə tədqiqat proqramlarında; ixtira və patent üçün verilmiş ərizələrdə; beynəlxalq layihələrdə; və digərlərində) |
| | Layihənin icrası nəticəsində əldə edilmiş nəticələrdən perspektivdə axtarış-innovasiya yönlü elmi-tədqiqat layihə və proqramlarında, dövlət proqramlarında, dövlət qurumlarının sahə tədqiqat proqramlarında, Azərbaycan tarixinin işlənilməsində istifadə etmək mümkündür. |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**İCRAÇI:**

**Müşavir**
Babayeva Ədilə Əli qızı

__________________
*(imza)*
“ __” ________ 201_-ci il

**Layihə rəhbəri**
Rəhimov Mütəllim Qara oğlu

__________________
*(imza)*
“18” may 2015-ci il

**Baş məsləhətçi**
Daşdəmirova Xanım Faiq qızı

__________________
*(imza)*
“ __” ________ 201_-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
ELMİN İNKİŞAFI FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun və UNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının maliyyə və təşkilati dəstəyi ilə elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü ildə keçirilmiş beynəlxalq xarakterli 2-ci "ŞUŞA QRANTI" müsabiqəsinin (EİF/MQM-2-Shusha-2013-3(9)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

## ALINMIŞ ELMİ MƏHSUL HAQQINDA MƏLUMAT
**(Qaydalar üzrə Əlavə 17)**

Layihənin adı: **Şuşa Azərbaycan mətbuatında (1875-1920-ci illər)**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Rəhimov Mütəllim Qara oğlu**
Qrantın məbləği: **10 000 manat**
Layihənin nömrəsi: **EİF/MQM-2-Şuşa-2013-3(9)-10/05/5-M-08**
Müqavilənin imzalanma tarixi: **11 aprel 2014-cü il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 may 2014-cü il-01 may 2015-ci il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır

### 1. Elmi əsərlər (sayı)

| № | Tamlıq dərəcəsi / Elmi məhsulun növü | Dərc olunmuş | Çapa qəbul olunmuş və ya çapda olan | Çapa göndərilmiş |
|---|---|---|---|---|
| 1. | Monoqrafiyalar | - | - | - |
| | həmçinin, xaricdə çap olunmuş | - | - | - |
| 2. | Məqalələr | - | - | - |
| | həmçinin xarici nəşrlərdə | - | - | - |

| | | | | |
|---|---|---|---|---|
| 3. | Konfrans materiallarında məqalələr | - | - | - |
| | O cümlədən, beynəlxalq konfras materiallarında | - | - | - |
| 4. | Məruzələrin tezisləri | - | - | - |
| | həmçinin, beynəlxalq tədbirlərin toplusunda | - | - | - |
| 5. | Digər (icmal, atlas, kataloq və s.) | - | - | - |

**2. İxtira və patentlər (sayı)**

| № | Elmi məhsulun növü | Alınmış | Verilmiş | Ərizəsi verilmiş |
|---|---|---|---|---|
| 1. | Patent, patent almaq üçün ərizə | - | - | - |
| 2. | İxtira | - | - | - |
| 3. | Səmərələşdirici təklif | - | - | - |

**3. Elmi tədbirlərdə məruzələr (sayı)**

| № | Tədbirin adı (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s.) | Tədbirin kateqoriyası (ölkədaxili, regional, beynəlxalq) | Məruzənin növü (plenar, dəvətli, şifahi, divar) | Sayı |
|---|---|---|---|---|
| 1. | - | - | - | - |
| 2. | - | - | - | - |
| 3. | - | - | - | - |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Müşavir**
Babayeva Ədilə Əli qızı

_______________
*(imza)*
"26" 05 2015-ci il

**Baş məsləhətçi**
Daşdəmirova Xanım Faiq qızı

_______________
*(imza)*
"__" ________ 201_-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**
Rəhimov Mütəllim Qara oğlu

_______________
*(imza)*
"18" may 2015-ci il